Müşfiq Qərib

# Şəhidliyin nur yolu

Bakı - 2021

*Redaktor:*
Məmmə d Qədir

*Korrektor:*
Məmmə d Qədir

*Rəssam dizayner:*
Müşfiq Qərib

Müşfiq Qərib. **Şəhidliyin nur yolu.**
Müəllim nəşriyyatı - Bakı 2021 – 110 s.

Əziz oxucum!
Bu kitab ikinci Vətən müharibə sində misilsiz qəhrəmanlıqlar göstərərək şəhid olmuş Xaçmaz rayonu Çiləgir kənd sakini Məmmə dov İkram Ehtiram oğlunun əziz xatirəsinə həsr olunur. Kitabda əsasən şəhidimizə həsr olunmuş şeirlər, məqalələr, öçerklər, uşaql ıq, ailə, döyüş yolunu əks etdirən fotoşəkillər yer almışdır. Allah şəhidlərimizə rəhmət eləsin! "Şəhidlər ölməz, Vətən bölünməz"!

© Müşfiq Qərib

# Ön söz əvəzi

Şəhidlər haqqında nə qədər deyilsə, nə qədər yazılsa yenə də azdır. Yaxın dönəmdə şanlı ordumuz düşməni işğal edilmiş ərazilərdən "iti qovan kimi" qovaraq ərazi bütövlüyümüzü tam bərpa etmiş, Azərbaycan xalqının necə mərd, qə hrəman, qürurlu bir xalq olduğunu bütün dünyaya sübut etmişdir. Əlbəttə, bu qələbə igidlərimizin qanı və canı bahasına başa gəlmişdir. 3000 minə yaxın şəhidimiz var. Hər birimizin əzizi, doğması , yaxını var onların sırasında. Bu şəhidlərimizdən biri də Xaçmaz rayonu Çiləgir kənd sakini Məmmədov İkram Ehtiram oğludur. Və bu kitabda onun şücaətini qələmə alaraq gələcək nəsillərə yadigar kimi saxlamaq niyyətində bulunan şəhidimizin dayısı oğlu, gənc və perspektivli yazarımız Müşfiq Qəribdir. Bu kitaba əsasən şəhidimizin şəninə yazı lan, onun şücaətini tərənnüm edən şeirlər, esselər, oçerklər və ailə şəkilləri daxildir. Sonda isə müəllifin bir sıra lirik şeirləri də verilmişdir. Şeirlərdə əsasən Vətənə, yurda məhəbbət, şəhidlərimizin ruhuna hörmət, azərbaycançıl ıq, gənc nəslin vətənpərvə rlik ruhunda tərbiyəsinin önə çəkilməsi əsas məqsəd kimi qabardılır. İnanıram ki, gənc yazar Müşfiq Qəribin "Şəhidliyin nur yolu" adlı ilk kitabı geniş oxucu kütləsinin marağına səbəb olacaq, gələcək nə sillərin vətənpərvərlik tərbiyəsinə öz layiqli töhfəsini verəcəkdir. Uğurlu yol arzusu ilə:

Məmməd Qədir

*Azərbaycan Yazıçılar Birliyinin üzvü.*

*"Qızıl qələm ", "Qızıl söz" medıa mükafatları*

*laureatı. Xaçmaz*

# Elegiya

Ən ağır faciə bilirsən nədir;
Qardaşın haqqında ölümdən yazmaq.
Köz kimi yandıran göz yaşlarıyla,
Olmur ürəyindən bu dərdi pozmaq.

Qurumur gözümdə qəm-kədər yaşı,
Sızlayır qəlbimdə qardaşın yeri.
Bütün göz yaşları quruyub gedir,
Qurumur gözümdə bu yaşın yeri.

Yadıma salanda hünərlərini,
Sevinirəm, qardaş yenilməz, mərddi.
Dərdimə şərikdi ürəyim mənim,
Qardaşın yoxluğu qardaşa dərddi.

# Qardaş

"Başınız sağ olsun" ən ağır sözdü,
Sinəmdə ürəyim sönməyən közdü,
Hər ağrı, acıya ürəyim dözdü, Sən
yoxluğuna dözmədi qardaş.

Ömrümə yağıbdı qəm-kədər qarı,
Bitməyir sinəmdə ahımın zarı,
Qəlbimə qazılıb şəhid məzarı,
Üstünə qərənfil düzmədi qardaş.

Dərdliyəm gözümü kədər bağlayıb,
Qısa ömrün qəlbimizi dağlayıb,
Məzarında hönkür-hönkür ağlayıb,
Dərdini çəkməkdən bezmədi qardaş.

Vətən üçün qurban verib ömrünü,
Yaşmadın gənc ömrünün dövrünü,
Mələklər ağladı sən ölən günü,
İnsanlar diz çökdü, gəzmədi qardaş...

## Ucaldın əl çatmaz zirvəyə, İkram

Həm atan, həm anan batıbdır qəmə,
Allah rəhmət etsin, ey İkram sənə,
Fəda eyləyərək canı Vətənə,
Ucaldın əl çatmaz zirvəyə, İkram.

Fəxrlə içərək sədaqət andın,
Hər qarış torpağı öz anan sandın,
Vətənin dərdinə şam kimi yandın,
Ucaldın əl çatmaz zirvəyə, İkram.

Yolunu gözlədi gözü dolaraq,
Anan fəryad etdi, saçın yolaraq,
Qarabağ uğrunda şəhid olaraq,
Ucaldın əl çatmaz zirvəyə, İkram.

## Savaşın

Şəhidlik şərəfli, müqəddə s yoldu,
Bu yolda nə qədər igidlər oldu,
Yenilmə z cəngavər, mərd əsgər
oldu, Əymədi düşmənə o uca başın.

Vətənin ağrılı çətin günündə,
Qorxmadan dayandı düşmən önündə,
Vətənə sədaqət vardı könlündə,
Qəhrəman oğuldur İkram qardaşım.

Yenilməz igidsən, deyilsən qorxaq,
Sancdın Füzuliyə üç rəngli bayraq,
Vermədin düşmənə bir qarış torpaq,
Qalib əsgərisən, -sən bu savaşın.

## Çiləgir kəndinin mərd oğlu, İkram

Qəlbində sevgi var, qolunda qüvvət,
Vətənə bəslədi ülvi məhəbbət,
Qanıyla, canıyla elədi xidmət,
Çiləgir kəndinin mərd oğlu, İkram.

Tanrı dərgahında ulu mə qamdan,
Vətə nə baxaraq güləcək İkram,
Qan verib Vətənə körpə canından,
Çiləgir kəndinin mərd oğlu, İkram.

Xaçmaza ə bədi şərəf, qürurdu,
Sönməyən işıqdı, əbədi nurdu,
Düşmə nin önündə dağ kimi durdu,
Çiləgir kəndinin mərd oğlu, İkram.

# Füzuli torpağın azad edərkən

Bayrağı kəfən tək geyib əyninə,
Düşməndən qorxmadan atılıb önə,
Ən ağı r zərbələ r vurub düşmə
nə, Füzuli torpağın azad edərkən.

İkram qarda ş batmayıb heç günaha,
Mələk kimi sadiq olub Allaha,
Millətini çıxarıb xoş sabaha, Füzuli
torpağın azad edərkən.

Qorxu nədi görünmə yib gözünə,
Bozqurd kimi düşüb düşmən izinə,
Ölümsüzlük qazanıb o özünə,
Füzuli torpağın azad edərkən.

Canıyla özünü çəkib sınağa,
Qanıyla can verib torpağa,
Bükülüb müqəddəs şanlı bayrağa,
Füzuli torpağın azad edərkən.

## Xaçmazın qüruru, hörmətli oğlu

Düşməndən qorxmadan vuruşdun mətin,
Hamıya bəllidir şir şücaətin, Qoxusun
səngərdən alıb cənnətin, Şərəfli Və
tənin, qeyrətli oğlu. Xaçmazın qüruru,
hörmətli oğlu.

Vətənə yapışdı İ kramın canı,
Torpağa qarışdı müqəddəs qanı,
Ağlatı özünə Az ərbaycanı,
Çiləgir kəndinin qüdrətli oğlu.
Xaçmazın qüruru, hörmətli oğlu.

Füzuli uğrunda şanlı bayrağa,
Bükülüb qovuşdun ana torpağa,
Ölümlə özünü çəkib sınağa,
Çiləgir kəndinin cürətli oğlu.
Xaçmazın qüruru, hörmətli oğlu.

## Qurban olum ay İkram

Allah oldu, Vətən oldu hər sözün,
Dünyanın malında olmadı gözün,
Könüllü savaşa getdin sən özün,
Cürətinə qurban olum, ay İkram.

Əfqan yatır sən yatan bu diyarda,
Pirdi mənə yatdığın bu məzar da,
Vətəni qoymadın çətində, darda,
Qeyrətinə qurban olum, ay İkram.

Xəbər çıxdı, itən əsgər tapıldı,
Haraya qohumlar yurduna doldu,
Mələklər ağladı, göy üzü soldu,
Hörmətinə qurban olum, ay İkram.

# İgidsən

Məzarın olubdur müqə ddəs ada,
Layiqs ən, ey İkram ən ülvi ada,
Canını eləyib Və tənçün fəda,
Şəhadət şərbətin içən igidsən.

Yolunu Füzuli tərəfdən saldın,
Torpağı düşməndən can verib aldın,
Can verib Vətənə, sən cansız qaldın,
Könüllü ölümü seçən igidsən.

Gənc yaşda həyatı düşərək başa,
Gözünü qırpmadan girdin savaşa,
Axıdıb qanını torpağa, daşa,
Vətənçün canından keçən igidsən.

# Adını yazmısan qəhraman kimi

Vətənin dərdini düşərək başa, Şir
kimi atıldın odlu sava şa,
Yağıdan aldığın torpağa, daşa,
Adını yazmısan qəhraman kimi.

Ucaldın zirvəyə adın-sanınla,
Cənnətə girmisən din, imanınla,
Zəfər tarixinə sən öz qanınla,
Adını yazmısan qəhraman kimi.

Vaxt tapıb gedirdin buyrulan yerə,
Yarayırdın hər an xeyirə-şərə,
Ay İkram, yazdığım hər bir şeirə,
Adını yazmışam qəhraman kimi.

## Şəhidim

Ürəyində Vətən olan, ar olan,
Öz qanıyla torpağına yar olan,
Səngərdə can verib gül kimi solan,
Əzəmətli, cəsarətli, Şəhidim.

Damarından qan vermisən Vətənə,
Son nəfəsdə can vermisən Vətənə.
Şöhrətindən şan vermisən Vətənə,
Səxavətli, mərhəmətli, Şəhidim.

Allah deyib doğru yola can atdın,
Qeyr ətinlə, azad Vətən yaratdın,
Nərə çəkib yatmış yurdu oyatdın,
Dəyanətli, kəramətli, Şəhidim.

Zəfər deyib, uca tutdun bayrağı,
Qarış-qarış azad etdin torpağı,
Qeyrət çəkib oldun Vətən dayağı,
Rəşadətli, mətanətli, Şəhidim!

# Peyğəmbərlər məqamındadır, İkram

Əbdülrə hmanlıya sancıb bayrağı,
Qanıyla dirildib ölən torpağı, Düş
mənin qəlbinə çəkərək da ğı, Can
verib Vət ənə qazanıb ad, san.
Peyğəmbərlər məqamındadır, İkram.

Gözündən sil yaşı, ana, ağlama,
Ağarmış başına qara bağlama,
Qəm yeyib balanın ruhun dağlama,
Vətənin yolunda olubdu qurban,
Peyğəmbərlər məqamındadır, İkram.

Bir olub Vətənin mərd oğulları,
Torpağı diriltdi şəhid qanları,
Əsrlər keçsə də qəhrəmanları,
Heç zaman unutmaz can Azərbaycan.
Peyğəmbərlər məqamındadır, İkram.

## On səkkiz yaşında Məmmədov İkram

Quş kimi güllələr uçdu yanından,
Səngərlər boyandı axan qanından,
Füzuli uğrunda keçib canından,
On səkkiz yaşında Məmmədov İkram.

Kişi kimi xidmət edib ölkəyə,
Daima bu Vətən var olsun deyə,
Ucaldı şanıyla uca zirvəyə,
On səkkiz yaşında Məmmədov İkram.

Halal qanın halallıqla axıtdı,
Cismini müqə ddəs torpağa qatdı,
Şəhid olub üç ay səngərdə yatdı,
On səkkiz yaşında Məmmədov İkram.

Düşmənin başına güllə yağdırıb,
Aslan kimi hücum çəkib, saldırı b,
Üç rəngli bayrağı göyə qaldırıb,
On səkkiz yaşında Məmmədov İkram.

Vətənə ömrünü edibdir qurban,
Ümidlər bir an da çıxarmı yaddan?
Ölməyib ş əhid tək köçüb həyatdan,
On səkkiz yaşında Məmmədov İkram.

## Axı

Məmmədov İkram mərd oğul idi,
Qürurlu, əzimkar qurd oğul idi,
Qaya kimi möhkəm sərt oğul idi,
Qızıl tək oğullar solmurlar axı.

Mələk tə k enmişdi yerə Şəhidlər,
Torpağa qarışmır diri Şəhidlər,
Dünyaya gələcək geri Şəhidlər,
Şəhidlər yaşayır ölmürlər axı.

Şəhidlər ədəbi yadda qalırlar,
Ulu peyğəmbər ə qonşu olurlar,
Cənnətdə ədəbi məskən salırlar,
Mələklər dünyada qalmırlar axı.

Ana dedik doğma yurdun adına,
Vətən dedik, Şəhid doğan qadına,
İgidlər yetişir el fəryadına,
Qorxaqlar irəli gəlmirlər axı.

Gözümün yaşını döndərim selə,
Qoy axsın bir ömür, qoy qalsın belə,
Yandırım özümü qoy dönüm külə,
Analar ağlayır, gülmürlər axı.

Yaxşının, yamanın kim olduğunu,
Vətənçün yananın kim olduğunu,
Vətənin, Ananın kim olduğunu,
Qeyrətsiz olanlar bilmirlər axı...

## Şəhadət mərtəbən mübarək olsun

Hünərin böyükdür, kiçikdir yaşın,
Qorudun Vətənin torpağın, daşın,
Könüllü savaşa gedən qardaşım,
Şəhadət mərtəbən mübarək olsun!

Şəhidlik yolunu seçən qəhrəman,
Vətənçün canından keçən qəhrəman,
Uca zirvələri seçən qəhrəman,
Şəhadət mərtəbən mübarək olsun!

Dayağı ordudur güclü dövlətin,
Tarixi qədimdir ulu millətin,
Ölməz şəhidisən bu məmləkətin,
Şəhidlik mərtəbən mübarək olsun!

## Bayramın mübarək

Yoxluğun qəlbimdə dönübdür dağa,
Odlanıram vulkan kimi yanmağa,
Ziyarətə gəldim səni anmağa,
Bayramın mübarək, ey gənc qəhrəman!

Sorğudan, sualdan bezmədi ürək,
Şəhidlər ürəkdə yaşasın gərək, Bəxtinə
şəhidlik yazmı şdır fələk, Bayramın
mübarək, ey gənc qəhrəman!

Çiçək arzuların bu yolda soldu,
Şəklinə baxanda gözlərim doldu,
Şəhidlik Allaha aparan yoldu,
Bayramın mübarək, ey gənc qəhrəman.

## Ağrı

Qəlbində arzular çiçək açanda,
Başının üstündən qara yel əsdi.
Zülmətdən işığa yol axtaranda,
Bir mərmi qəlpəsi ömrünü kəsdi.

Son nöqtə qoymuşam qə lbimdə
qəmə, Ağlama ürəyim, a ğlama daha.
Ağlamaqla bitmir qəlbdə ahımız,
Ağlamaq üsyandır uca Allaha.

Qəlbimə yaxınsan ş ah damar kimi,
Bizlərə səbr ver, ey Allahımız!
Əsrlər keçsə də yenə də bizim,
Tək sənsən ya Rəbbim səcdəgahımız.

Qəm-kədər olubdur qəlbimə düşmən,
Yoxluğun od kimi yandırır məni.
Daima qəlbimdə yaşayacaqsan,
Heç zaman unudan deyiləm səni.

Bir dəfə yuxuma qonaq kimi gəl,
Gülümsə, çatlasın dərdimin bağrı.
Ümidlə baxmıram üzü sabaha,
Əzabdır, dəhşətdir çəkdiyim ağrı.

## Əsgərim

Şir ürəklı, aslan güclü igidim,
Şuşanı düşməndən alan əsgərim.
Gülləsi bitəndə dişlə savaşıb,
Düşməni lərzəyə salan əsgərim.

Gözlər olur yanan qəlbin bacası,
Bayrağımdır bayraqların ucası,
Arəstə dir üç min mərdin bacısı,
Əbədi yaddaşda qalan əsgərim.

Dünyaya tanıtdı Azərbaycanı,
Çökdürdü diz üstə Ermənistanı,
Heyrətə gətirdi bütün dünyanı,
Qırx dörd günə zəfər çalan əsgərim.

## Bəlkə

Bir ulduz var göy üzündə gur yanır,
Mənim gözüm ancaq ona tuşlanır,
O ulduz da Çiləgirə boylanır,
O ulduz İkramın ruhudu bəlkə?

Şər olsa da olur sə ssiz gec ələr,
Ulduzlar öz nurun yerlərə ələr,
Gecənin keşiyin çəkir bir əsgər,
O ulduz İkramın ruhudu bəlkə?

İkramı sözündə hamı şah bilir,
Yoxluğun özünə hər kəs ah bilir,
M ən elə sanıram bir Allah bilir,
O ulduz İkramın ruhudu bəlkə?

# Sən zəif deyilsən, ey Azərbaycan

Otuz il göynədi yara dərdimiz,
Yağının əlində əsir yurdumuz,
Vətən savaşına keçdi ordumuz,
Uğrunda üç min mərd fəda etdi can,
Sən zəif deyilsən, ey Azərbaycan.

Süngüylə, bıçaqla dağa çıxdılar,
Dağların başından dığa yıxdılar,
Düşmənin başını yerə soxdular, "Ya
şma"dır düşməni lərzəyə salan. Sən
zəif deyilsən, ey Azərbaycan.

Yanmağa başlayıb azadlıq şamı,
Elə bil dəyişib həyatın tamı,
Döyüşə getməyə can atır hamı,
Yolunda canını xalq deyir qurban.
Sən zəif deyilsən, ey Azərbaycan.

## Çətindir dərdinə dözmək, can bala

Taleyimi yazan arzuya çatıb,
Dərdləri üstümə şər kimi atı b,
Dünyanın qəmləri qəlbimdə yatıb,
Könlümdə dərdlərdən tikilib qala,
Çətindir dərdinə dözmək, can bala!

Kim qoydu qəlbimə bu ağı r dağı ,
Qırılıb ömrümdən bir oğul ba ğı,
Saçıma çə kilib gözümün ağı,
Yoxluğun qəlbimdə dönübdür xala,
Çətindir dərdinə dözmək, can bala!

Bezmişəm həyatdan, ümidim sınıb,
Ömrümə nur saçan günəşim sönüb,
Canımdan can qopub torpağa dönüb,
Düşməsin analar mən düş ən hala,
Çətindir dərdinə dözmək, can bala.

Göz yaşı gözümü döndərib gölə,
Üzümdə qırışlar yol olub selə,
Atəşə düşmüşəm, dönmüşəm külə,
Hardan tapdı bizi bu dərd, bu bəla,
Çətindir dərdinə dözmək, can bala!

# Şəhid anası

Divardan aşılmı ş oğul şəklinə,
Baxaraq a ğlayır şəhid anası.
Neyləsin, qalıbdır oğluna həsr ət,
Dəniztək çağlayır şəhid anası.

Şikayət etsədə zalım fələyə,
Xeyri yox, acını salıb ürəyə,
Balasız bir ana axı neyləyə,
Qəlbini dağlayır şəhid anası.

Qəm-kədər köhnəlmir keçsə də yüz
il, Oğlunun qəbrinə salır o meyil,
Dərddən qara şalı başına deyil,
Ömrünə bağlayır şəhid anası.

# Şəhid olub balam mənim

Mən ruhumdan yaralıyam,
Övladımdan yaralıyam,
Qürurluyam, qərarlıyam,
Bükülməzdir qolum mənim.
Şəhid olub balam mənim.

Sinəmdə ürək əzirəm,
Onsuz həyatda gəzirəm,
Vallah, həyatdan bezirəm,
Çünki qopub solum mənim.
Şəhid olub balam mənim.

Göz dost olub qəm yaşına,
Dərd yağır ürək başına,
Yazılıb xalq yaddaşına,
Müqəddəsdir yolum mənim.
Şəhid olub balam mənim.

Ətir yoxdur heç bir güldə,
Hüznlüdür qərənfil də,
Azad olan Füzulidə,
Sökülməzdi qalam mənim.
Şəhid olub balam mənim.

Qəlbimdə dərd, gözümdə nəm,
Qara saçı öldürüb dən,
Ağlamayım neyniyim mən,
Şəhid olub balam mənim.
Şəhid olub balam mənim.

## Qoparmayın köz yaramı

Qardaş dərdi, ağır də rddi,
Görmürsüzmü üzüm pə rtdi,
Qəlbim kövr ək, dərdim s ərtdi,
Qoparmayın köz yaramı.

Ömrüm axdı lal gözlərdən,
İnciməyin bu sözlərdən,
Bir xahişim var Sizlərdən,
Qoparmayın köz yaramı.

Qırılıb qəlbimin simi,
Köhnəlmir dərd qızıl kimi,
Qızılgüldən tikan kimi,
Qoparmayın köz yaramı.

# Bir qəhraman tanıyıram

Həsrət olur qəlbi didən,
Gənc ömrünü qurban edən,
Döyüşə könüllü gedən,
Bir qəhraman tanıyıram.

Yağını lərzəyə salan,
Ermənidən qisas alan,
Əbədi tarixdə qalan,
Bir qəhraman tanıyıram.

Aydan gözəl mələk üzlü,
Kişi idi, bütöv sözlü,
Şir biləkli, qartal gözlü,
Bir qəhraman tanıyıram.

Bir gənc vardı cəsarətli,
Rəşadətli, mətanətli,
Xalqı üçün səxavətli,
Bir qəhraman tanıyıram.

Qeyrət var türk övladında,
Saxlasın hər kəs yadında,
İkram Məmmədov adında,
Bir qəhraman tanıyıram.!

## Düşmənin qarşısında

Qəlpə dəyəndə yandım,
Al qanıma boyandım,
Kişi kimi dayandım,
Düşmənin qarşısında.

Az bilməyin yaşımı,
Bilərsiz pir daşımı,
Əyməmişəm başımı,
Düşmənin qarşısında.

Şəhid oldum ölmədim,
Ölməyimi bilmədim,
Mən heç vaxt əyilmədim,
Düşmənin qarşısında!

# Var

Gözlərimiz qalıb ağlar,
Gül üstündə solub bağlar,
Başın əyir sənə dağlar,
Qardaş, şəhid xəbərin var.

Yağılardan qisas alan,
Sənsən cənnətə yol salan,
Sultanı peyğəmbər olan,
Cənnət adlı şəhərin var.

Göz hər yerdə səni arar,
Hər söz səndən şeir qurar,
Qəlbimdə öldü arzular,
Ürəyimdə qəhərim var.

## Sənə şeir yazanda mən

Elə bilmə unutmuşam,
Hər gün yasını tutmuşam,
Gecələri də udmuşam,
Sənə şeir yazanda mən.

Bu kainatdan deyiləm,
Mən bu həyatdan deyiləm,
Ruhuna tərəf meyiləm,
Sənə şeir yazanda mən.

Ara-bir fikrim qarışır,
Ürəyimə dərd daraşır,
Üzümdə yaşlar yarışır,
Sənə şeir yazanda mən.

İzin qaldı, közün söndü,
Gözümdə yaş selə döndü,
Qəlbim yanıb külə döndü,
Sənə şeir yazanda mən.

Lal su kimi axır zaman,
Pərişandır atan, anan,
Ölüb dirilirəm, İkram,
Sənə şeir yazanda mən...

# Döyünürəm Vətənimlə

Qürurluyam, dövlətim var,
Yenilməz bir millətim var,
Türk soyuyam, hörmətim var,
Öyünürəm millətimlə.

Vətənə salmışam meyil,
Bu addımım yanlış deyil,
Mənə ürək gərək deyil,
Döyünürəm Vətənimlə.

Əbədidir adım-sanım,
Cənnətdir Tanrı dərgahım,
Qəhrəmanlıqdır dastanım,
Qürur duyun siz mənimlə.

# Ruhun şad olsun qardaşım

Ocağında közün qalıb,
Bu dünyada gözün qalıb!
Füzulidə izin qalıb,
Ruhun şad olsun, qardaşım!

Hər gün qəm-kədər yeyirəm,
Gözlərimə yaş geyirəm,
Məzarına baş əyirəm,
Ruhun şad olsun, qardaşım!

Çəkdin elin qeyrətini,
Hamı gördü cürətini,
Saxlayır xalq hörmətini,
Ruhun şad olsun, qardaşım!

## Şəhidin var Azərbaycan

Qarışıb yaş gözdə qanla,
Axır gözdən damla-damla,
Söyləyirəm həyəcanla,
Şəhidin var Azərbaycan!

Vətənin dağdır sinəsi,
Yenə gəlir güllə səsi,
Düşmən pozub atəşkəsi,
Şəhidin var Azərbaycan!

Öz qanıyla igid əsgər,
Qazanıbdır şanlı zəfər,
Candan keçən üç min nəfər,
Şəhidin var Azərbaycan!

# Şükürlər olsun ya, Rəbbim

Azadlıqdır diləyimiz,
Qarabağdır ürəyimiz,
Əsdi zəfər küləyimiz,
Şükürlər olsun, ya Rəbbim.

Türklər oldu bizlərə yar,
Dastan yazdı mərd oğullar,
Hər bölgədən qəhrəman var,
Şükürlər olsun, ya Rəbbim.

Hamı dönmüşdü qardaşa,
Halaldır hər vətəndaşa,
Getmədi zəhmətlər boşa,
Şükürlər olsun, ya Rəbbim.

## Biz Oğuz türkləriyik

Qeyrət var qanımızda,
Qorxu yox canımızda,
Qurd yatır yanımızda,
Biz Oğuz türkləriyik.

Xaçmatakdı yurdumuz,
Bozqurdlardı ordumuz,
Var Dədə Qorqudumuz,
Biz Oğuz türkləriyik.

Heç vaxt olmarıq kölə,
Qurmarıq dosta tələ,
Bağlı olmuşuq elə,
Biz Oğuz türkləriyik.

Çöldə keçib ömür çox,
Əldə qopuz, kaman ox,
Mal-mülkdə gözümüz yox,
Biz Oğuz türkləriyik.

Bir yolumuz qar boran,
Din yolumuz haqq Quran,
Bizlərə hər yer Turan,
Biz Oğuz türkləriyik.

## Ehtiram oğlu İkram

Xaçmaz yetişdiribdir,
Cəsur, igid qəhraman.
Çiləgirdə doğulub,
Ehtiram oğlu İkram.

On səkkiz yaşa çatıb,
Getdi hərbi xidmətə.
Qəhrəmanlıq göstərib,
Ordan getdi cənnətə.

Məzar olubdur üç ay,
İkrama qanlı səngər.
Üç ayın əsgəriydi,
Şəhid olanda bu ər.

## Gedəndə özü dedi

Əsgərliyə gedəndə,
Dedi şəhid olacam.
Əfqanın qisasını,
Ermənidən alacam.

Gedəndə özü dedi,
Bəlkə də qayıtmadım.
O günü, bu gün kimi,
Mən hələ unutmadım.

Bu dünyadan mələk kimi,
Şəhid olub, çıxıb getdin.
Qısa bir ömür yaşayıb,
Dünyamızı yıxıb getdin!

## Füzuli

Ürəklərdən başlayır,
Məzarına gedən yol.
Səngərlərdən başladı,
Səni şəhid edən yol.

Canla, qanla alınıb,
Qarış-qarış Füzuli.
Dəyən deyil bu yurda,
Bir daha düşmən əli.

Qarabağa gedən yol,
Füzulidən salınıb.
Məzarında rahat yat,
Şanlı zəfər çalınıb.

Əsir düşən Qarabağ,
İşgəncədən yorulub.
Düşmən kirlədən Vətən,
Göz yaşıyla yuyulub.

Şəhid qoxan səngərlər,
Doludur arzularla.
Şəhidlər ölməyəcək,
Yaşayacaq vüqarla.

Sənin yoxluğun, İkram,
Ürəyimi qoparır.
Allah sadiq qulları,
Dərgahına aparır.

## Gəl danışaq

Sənə şeir yazıram,
Başqa neyləyim, qardaş?
Ayrı çıxış yolum yox,
Dərdinlə oldum sirdaş.

Sənə olan borcumu,
Söylə necə ödəyim?
Sənə şeir yazanda,
Rahatlaşır ürəyim.

Gündüz şeir yazmıram,
Gözlərim dolur yaşla.
Kimsə məni görməsin,
İstəmirəm bu yaşla.

Gecə rahat oluram,
Deyim ki, gəl danışaq.
Mənə elə gəlir ki,
Küslüyük, barışaq.

Elə mən danışıram,
Sən susub dayanmısan.
Üzün yaman qaralıb,
Harda belə yanmısan?

Biraz indi sən danış,
Danış müharibədən.
Nə var, nə yox, xəbər ver,
Cəbrayıl, Füzulidən.

Heç kimə söyləmərəm,
Gizli hərbi sirləri.
Bir vaxt hamı görəcək,
Sirr saxlanan yerləri.

Danışmasan bilmərəm,
Üç aydır sən hardasan?
Həsrətə dözmək olmur,
Söz deyil unudasan.

Yəqin yaralanmısan,
Ürəyində ağrı, qəm.
Ona görə susmusan,
Bağışla, bilməmişəm.

Var olduqca bu Vətən,
Əbədi qəhrəmansan.
Qarşında baş əyirəm,
Sən müqəddəs insansan!

## Şəhid anasının fəryadı

Gözləri çuxura düşmüş
saçlar ı bir gecədə ağarmış
qadın, Şəhid Anasıdır.
Övladının yoxluğuna alışa bilməyən
həsrətinə necə dözsün? Dözmək
çətin,
bu acı elə ağırdır ki...
Heç bir sözlə ananın övlad həsrətini
ifadə edə bilmirəm.!
Heç bir təsəlli ananın övlad acısını azaltmır.
Bu da bir insan taleyidir,
Analar yaşayır.
Bir vaxt doğduğu oğul üçün
bu gün göz yaşı doğur.
Nisgil dolu, qəm dolu....

## Şəhidlər ölmür

Bütün yüksəkliklərdən uca
bir zirvə var,
Şəhidlik zirvəsi.
Bu zirvəyə müqəddəs amallar uğrunda çarpışan,
Vətən yolunda canını fəda edən ləyaqətli
insanlar
yüksəlir.
Şəhidlər ölmürlər,
zaman keçdikcə əfsanəyə dönürlər!
Əfqan Yəhyayev kimi,
İkram Məmmədov kimi,
Orxan Çobanov kimi,
Kərəm Veyisov kimi,
Şəhidlər ölmür
qəlbimizdə yaşayır onlar...

# Fotolar

Kiçik yaşda olan şəkilləri










İbdidai sinif müəlliməsi və sinif yoldaşları



Valideyinləri və nənəsi







Son keçirdiyi doğum günü
(*08.06.2020)*




Ailəsilə sonuncu şəkili, hərbi xidmətə gedən gün *(13.07.2020)*




Məmmədov İkram
Ehtiramoğlu



Əsgər yoldaşları
*(İkram sağdan birinci)*



Füzulidə eyni anda şəhid olan hərbi qulluqçular.
*(Sağdan ikinci)*




Şəhidin evində olan xatirə lövhəsi












Xaçmaz Şəhidlər Xiyabanı




Məmmədov
İkram Ehtiram oğlu




Çiləgir kəndinin girişi




Çiləgir kəndinin mərkəzi


Məmmədov İkram
Ehtiramoğlu


MƏMMƏDOV
İKRAM
EHTİRAM OĞLU
əsindən xatirə
REDMI NOTE 8
AI QUAD CAMERA




Şəhidin məzarı

# Məqalələr və ocerklər

# Zəfər yolu

Bütün yüksəkliklərdən ucada dayanan bir zirvə var:

Şəhidlik zirvəsi. Bu zirvəyə qalxmaq hər kəsə nə sib olmur. Yalnız müqəddə s amallar uğrunda çarpışan, qorxu nə olduğunu bilməyən, Vətən və xalq yolunda canını fəda etməkdən çəkinmə yən cəsarətli, l əyaqətli insanlar yüksələ bilərl ər bu uca zirvəyə. Bu yüksəkliyə ucalan insanlar ölmürlər, əksinə ölümləri ilə bir əbədilik qazanırlar. Şəhidlər heç vaxt unudulmur, həmişə minnətdarlıq duyğuları ilə yada sal ınır, xatirələrinə dərin ehtiram bəslənilir. Azadlığı, müst əqilliyi, babalardan miras qalan torpağı uğrunda oğlunu, qızını şəhid verən xalq xoşbəxt xalqdır. Bu mənada Azərbaycan xalqının qürur hissi keçirmə yə, başını uca tutmağa tam mənəvi haqqı var. 1990-cı ilin qanlı 20 Yanvar Şəhidləri, 1992-ci ilin 26 fevral Xocalı faciəsi şəhidləri, birinci Dağlıq Qarabağ müharibə si şəhidləri, 2016-cı ilin Aprel döyüşləri, 2020-ci ilin İyul döyüşləri və 27 sentyabrda başlanan ikinci Qarabağ müharibəsində xalqımızın minlərcə igid övladı uca şəhidlik zirvəsinə yüksəlmişdir. 2020-cı ilin 27 sentyabr gecəsində təpədən dırnağadək silahlanmış düşmən qoşunları hücma keçirlər. Şanlı Ordumuzun ə sgərləri düşmən ermənilə rin qarşısından geri çəkilmədilər, misli görünməmiş iradə, yenilməzlik nümayiş etdirərək 44 gün ərzində düşmənin bütün ordusunu darmadağın etdilər. Vətən, xalq sevgisi idi onlara cəsarət verən, s ıraları nı möhkəm edən. Düşmən ordusunun əsgərləri, zabitləri belə heyr ətə düşmüşdülər. İkinci Qarabağ müharibəsində Vətən oğulları könüllü olaraq qatılıb şücaətlə vuruşmuş, misilsiz qəhrəmanl ıqlar göstərmişlər. Azərbaycanın vaxtilə imperiya ordusunun köməyi sayəsində erməil ərin əlinə keçən torpaqlarımız 30 ildən sonra müharibə yolu ilə geri qaytarıldı, respublikamızın ərazi bütövlüyünü təmin edildi. Birinci Qarabağ müharibəsi Şəhidlərin arzularının bir çoxu həyata keçmişdir. Azərbaycan suverenliyini təmin edilib, onların arzuladıqları müstəqil dövlə timiz qurulub. Ölkəmizin iqtisadi və hərbi gücü getdikcə artır. Gözəl Vətənimizin şəhid bac ı və qardaşlanmızın qanı ilə qazanılan müstəqilliyini, azadlığını göz

bəbəyi kimi qorumalıyıq. Bu gün ölkənin hər yerində şəhidlərin əziz xatirə sinə dərin ehtiram bəslənildiyinin şahidi oluruq. Şəhidlər bizim həm nisgilimiz, kədərimiz, ürək ağrımız, həm də qürurumuz, vüqarımız, fəxrimiz, ölməzliyimiz, örnəyimizdir. Allah vətən uğrunda canından keçən bütün şəhidlərimizə rəhmət eləsin!

# On səkkiz yaşlı İkram

Əgər biz tarixi keçmişimizə nəzər salsaq, görərik ki, doğma yurdumuz Azərbaycanın igid, cəsur oğulları, qeyrətli qızları həmişə vətənpərvər olmuş, yadelli işğalşılara qarşı qəhrəmancasına mübarizə apararaq Vətənimizi düşmən ayağına verməmişlər. Bu igid Vətən övladları doğma yurd naminə canlarından keçməklə əsl vətənpərvərlik nümunəsi göstərmiş, şərəfli bir iz qoyub getmişlər. Qarabağ savaşının qəhrəmanları, ölümləri ilə ölümsüzlüyə qovuşan şəhidlərdir. Ermənistanın Azərbaycandan əsassız torpaq iddiası elan edilmədən ba şlayan müharibəyə səbəb oldu. Döyü şlərdə qəhrə manlıqlar da tarixləşdi, qəhrəmanlar da. Azərbaycanın mərd oğlu, ə sgər İkram Məmmədovun ata ocağı Xaçmaz rayonunun Çiləgir kəndində yerləşir. Şəhid İkramın ata oca ğında Azərbaycan və Türkiyə bayrağları dalğalanır. Şəhidin valideyinlərinin gözlərində hüznlə qar ışıq bir qürur var. Çünki şəhidliyin qüruru kədərində n böyükdür. Övladları şəhid adını qazanmaq üçün Vətəni sevməyin yet ərli olmadığı nı, onun yolunda canından keçməli olduğun yaxşı bilirdi. İkram haqqında valideyinləri danış dıqca, göz yaşlarımı güclə saxlayıram. İ kramın yaşadığı ömür çox qısa oldu. O, bu qısa ömrü əsl vətəndaş kimi yaşadı. Şəhid kimi bu dünyadan köçdü. 44 günlük Və tən müharibəsinin qə hrəmanı şəhid İkram Məmmədovun qardaşı İntiqam Məmmədov deyir: Məmmədovun qardaşı İntiqam Məmmədov deyir: Şəhid qardaşı qardaşının qayğıkeşliyindən ağız dolusuyla danışır. Onu mələ yə bənzədərək elə mələk kimi də dünyadan köçdüyünü vurğulayır. İ kramı n bacısı Elnaz Yunusova qardaşı haqqında belə deyir: Heç vaxt mənim xətrimə dəyməyib. Sanki mələk idi, gəldi bu dünyaya və getdi. O ailəmizi necə sevirdisə, Vətəni də elə sevirdi. Mən sağlığında da onunla fə xr edirdim, indi də fəxr edirəm. Vət ən sağ olsun. Amma kaş o da sağ olaydı. Hər birimizin dayağı o idi. Bundan sonrakı həyatımızı düşünmək çox çətindir. O bizim yanımızdadır, mən onu görür əm. Hər zaman da qəlbimizdə ya şayacaq. Arzumuz odur ki, onun xatirəsi daim yaşasın. Hamı onu tanısın. Şəhid anası Abdət

Məmmədova da övladı barədə danışmağı n çətin olduğunu vurğulayır: Oğlum Vətənini müdafiə edəndə şəhid olub. Şükür Allaha ki, nəşini tapıb uğrunda öldüyü torpağa tapşırdıq. Kişinin işi torpaq qorumaqdır, o da necə lazımdırsa, elə də Vətənini qorudu. "Arzusu polis olmaq idi. Amma qisməti şəhidlik oldu. Polis ola bilməsə də, şəhid oldu". Oğlumla qürur duyuram. Şəhid atası Ehtiram Məmmədov da övladı barədə danışmağın çətin olduğunu vurğulayır: Oğlum oktyabrın 13-də Füzuli istiqamətində gedən döyüşlərdə doqquz nəfər döyüş yoldaşı eyni anda şəhid olub. Komandirləri də onlarla bərabər şəhid olub. Rayonumuzun uşaqlarından da yanında heç kim olmayı b. Ona görə də biz onun qəhrəmanlıqları haqqında kimdənsə hələ nəsə öyrənə bilməmişik. Füzuli, Xocavə nd istiqamətlərində döyüşl ərdə iştirakedib. Qumbara atan olduğuna görə həmişə ön cə bhədə olub. Sonuncu zəngimiz oktyabrın 9-da olub. Bizə dedi ki, mərkəzə doğru gedirik, hər şey yaxşıdır, mənə görə narahat olmayın. Oktyabrın 9-dan noyabrın 18-nə kimi heç bir məlumat ala bilməmi şik. Müharibə bitdi, amma İkram zəng etmədi. Narahat oldum. Başladım hər yerdə onu axtarmağa. Noyabr ın 19-da xidmə t etdiyi Qazax rayonunda olan N saylı hərbi hissəyə getdim. Ordan mənə dedilərki, İkram və döyüş yoldaşları Füzuli istiqamətində itkin düşüblər. Qeyd eldək ki, Neytral zonada olduğu üçün mənfur düşmənimiz onun nəşin basdırır. Qırmızı Xaç cəmiyyetinin köməkliyi ilə əsgər Məmmədovun nəşi tapılaraq ailəsinə t əhvil verilir. Qəhrəmanımız Vətən müharibəsinin ilk günlərindən ön cəbhədə döyüşüb. On səkkiz yaşlı İkram Füzuli uğrunda gedən döyüşlərdə iştirak edərək doqquz döyüşçü yoldaşıyla birgə şəhidlik məqamına yüksəlib. Sonuncu dəfə ailəsiylə oktyabrın 9-da danışıb. Düz üç aydan sonra ailəsi övladının nəşinə qovuşub. İkram Məmmədov doğulub boya-başa çatdığı Xaçmaz rayonunun Çiləgir kəndində torpağa tapşırılıb.!

## Döyüş yolu

Qarabağ savaşı onu da başqa vətən gəncl əri kimi düşmənlə üz-üz qoydu. Vətən müharibəsində canından keçən qəhrəman oğulları mızdan biri də şəhid Məmmədov İkram Ehtiram oğludur. Ailənin son beşiyi olan Ikram hələ uşaq yaşlarında qəlbindəki Vətən sevgisi ilə yaxınlarının məhə bbətini qazanıb. İkram Məmmədov orta məktəbi bitirdikdən sonar həqiqi hərbi xidmətə yollanıb. 2020-ci ildə hə rbi xidmətə Gəncə şəhərində yerləşə n N saylı hərbi hissə də başlayıb, 3 ay təlim keçdikdən sonar Qazax rayonunda yerləşən N saylı hərbi hissədə xitmətini davam etdirib. Sentyabrın 27-də müharibə başlayanda İkram könüllü olaraq ön cəbhəyə yollanıb. Füzuli, Xocavənd istiqamətlərində gedən ağır döyüşlə rdə fədakarlığı ilə seçilib, düşmənin xeyli sayda canlı qüvvəsi və texnikasını n məhv edilməsində qəhrəmanlıqlar göstərib. Özünü döyüşl ərin ən qı zğın meydanına atır, düşmənə qan uddururdu. Cəbhə yoldaşları İkramın gənc əsgə r olmasına baxmayaraq hər zaman irəlidə olduğunu bildirirlər. Cəsur döyüş çümüz sərras qumbara atışlarıyla düşmənə ağır zərbələr endirib. Qorxunun nə olduğun bilməyən gənc qəhrəmanımız ailə üzvləri ilə son telefon danışığı oktyabrın 9-da olur. O, cəbhənin ən ağır yerində döyüş məsinə baxmayaraq, hər şeyin yaxşı olduğunu və mərkəzə doğru irələdiklərini deyib. İkram Məmmədov oktyabr ın 13-də Füzulinin aşağı Əbdülrəhmanlı kəndinin işğaldan azad edilməsi uğrunda gedə n ağır döyüşlərdən birində düş mənin atdı ğı minaatan qəlpəsinə tuş gələrək qəhrəmancasına şəhid olub. İgid Və tən oğlu doğma torpaq, müq əddəs yurd uğrunda canını qurban verdi, ş əhidlik zirvəsinə ucalaraq ölümsüzlüyə qovuşdu. Vətəni sevən, vətən yolunda canından keçən qəhrəmanlar heç vaxt unudulmur, qədirbilən xalqımızın qəlbində əbədi yaşayırlar...

# Xaçmaz Şəhidləri

2020-ci il sentyabrın 27-də n noyabrın 10-dək davam edən Vətən müharibəsində müzəffər Azərbaycan Ordusu düşmən üzərində parlaq qələbə qazandı. 30 ilə yaxı n həsrətində olduğumuz torpaqlarımız şəhidlərimizin qanı və canı bahasına işğaldan azad olundu, ölkəmizin ərazi bütövlüyü bərpa edildi. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda müqəddəs savaşda i ştirak etmək üçün, minlərlə Vətən övladı könüllü ordu sıralarına yazılmışdır. Tarixi Zə fərlə başa çatan ikinci Qarabağ müharibəsində 49 nəfər Xaçmazlı şəhidlik zirvəsinə ucalıb. Azərbaycan dövlə tinə müxtəlif sahələrdə xidmət etmiş bu igidlər Vətən yolunda canlarından keçərək adlarını Azərbaycan tarixinə qızıl hərflərlə yazıblar. İkinci Qarabağ müharibəsində 200 nəfər Xaçmazlı yaralanıb, 300 nəfər iştirak edib, ümumilikdə 49 nəfər şəhid olub. Xaçmazlılar işğal olunmuş ərazilərimizin azad edilməsi, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi uğrunda apar ılan döyüşl ərdə misilsiz şücaət və rəşadət göstərmişl ər. Dünyada ən böyük nemət olan ömrünü Vətən naminə qurban verən hər bir şəhidimiz Azərbaycanın tarixində qəhrəman kimi yaşayacaq.

## Dəfn günü

Keçirdiyimiz hər gün tarixə dönür. Tarixə yazılan günlərin hamısı yaddaqalan olmur. Elə günlər var onlar unudulub gedir, elələri də var ki, onlar heç vaxt unudulmur, yaddan çıxmır. Belə günləri unudulmaz edən qəhramanlardan biri də , Şəhid Məmmədov İkram Ehtiram oğludur. İtkin düşmüş İkramın şə hid olduğu bəlli oldu. Qara xəbər ildı rım sürəti ilə hər tərəfə yayıldı. 13 yanvar 2021-ci il. Kədərli insan seli Çiləgir kəndinə doğru axmağa ba şladı. İnsanlarının çöhrələrində sevinc qarışıq kədər var idi. Kədərli insan selini yararaq Şəhidin doğulduğu evə yaxınlaşdım. Şəhidin nəş ini Azərbaycan bayrağına bükülmüş tabutda gətirdilər. Şəhidin anası və yaxınları hönkür-hönkür ağlayırdılar. Kədər dolu bu anı müşahidə etmək çox ağır idi. 10 minə yaxın insan İkramı dəfn etməyə gedirdi. Bir nəfər hamı üçün, hamı bir ş əhid üçün toplaşmışdı sanki. Şəhid doğulduğu torpağa tapşırıldı. Məzarın üstünə tər qə rənfillər düzüldü. Daha sonra Xaçmaz rayon İcra Hakimiyətinin başçısı Elnur Rzayev tərəfindən Şə hidin tabutuna bükülmüş müqəddəs Azərbaycan bayrağı şəhidin atasına təhvil verildi. Şəhidin atası Ehtiram Məmmədov oğlunun qanına boyanmış müqəddəs bayrağı öpərək Vətən sa ğ olsun!- dedi. Şəhid dəfn edildikdən sonra hərə bir yana dağılışdı. Hava yavaş-yavaş qaralmağa başlamışdı. Mən yenidən şəhidin evinə qayıtdım, nə edəcəyimi bilmirdim. Yaşadıqlarım sanki yuxu idi.

# Gənc qəhrəman - Esse

Torpaq uğrunda ölən varsa, vətəndir. Bəli, torpaqları mızın bütövlüyü uğrunda canından kecib şəhidlik zirvə sinə ucalan vətən oğullarımızdan biri də Xaçmaz rayonunun Çilə gir kənd sakini əsgər Məmmədov İkram Ehtiram oğludu. O, 8 iyun 2002-ci ildə anadan olub. 2008-ci ildə Xaçmaz rayon Əfqan Yəhyayev adına Çiləgir kənd tam orta məktə binə 1-ci sinifə gedib. 2017-ci ildə (9-cu sinifi) orta məktəbi bitirib. Orta məktəbi bitirdikdən sonra, Xaçmaz rayon
97 nömrəli texniki peşə məktəbində "Traktorçu-maşinist" peşəsi üzrə təhsilini davam etdirib. 2020-ci il iyulun 13-ü Xaçmaz rayon Səfərbərlik Və Hərbi Xidmətə Çağırış Üzrə Dövlət Xidməti tərəfindən həqiqi hərbi xidmətə çağrılıb. Hərbi xidmətə Gəncə şəhərində N saylı hərbi hissədə başlayıb. Hərbi andı qəbul etdikdən sonra Qazax rayonun N saylı hərbi hissədə xidmətini davam etdirib. Vətən müharibəsi başlayan kimi könüllü olaraq döyüşlərə qatılıb. İkramgil ailədə üç uşaq olublar. İki oğlan, bir qız, İkram ailənin sonbeşiyi idi. O, hələ kiçik yaşlarından kənddə özünə hörmət, izzət qazanmışdı. Daim böyüyün, kiçiyin yerini bilən olub. İkram. Vətənini, xalqını sevən vətənpərvər bir gənc idi. İkram gənc əsgər olamasına baxmayaraq qorxmaz bir döyüşçü olub. Şəhidlik zirvəsinə ucalan İkram Məmmədov eldən gedən igidlərimizdən idi. Vətən müharibə başlayan kimi könüllü olaraq döyüşə qatılan İkram Məmmədov oktyabrın 13-də Füzuli rayonu istiqamətində gedən döyüşdə qəhrənmancasına şəhid olub. İkram və bir neçə silahdaşı mina mərmisinin partlaması nəticəsində şəhidlik zirvəsinə ucalıblar. Sonradan həmin əraziyə nəzarət düşmən tərəfə keçdiyindən ermənilər şəhidlərimizin nəşini torpağa basdırıblar. Məhz bu səbəbdən də düşmən məhv edildikdən sonra İkram və döyüş yoldaşlarının yerini müəyyən etmək mümkün olmayıb. Onlar itkin düşmüş sayılırdı. Nəhayət üç aydan sonra şəhidlərimizin basdırıldığı yer müəyyənləşib. Qəhrəman döyüşçümüzün nəşi torpaqdan çıxarılaraq DNT analizi ilə şəxsiyyəti müəyyənləşdirilib. İkram şəhid olmasından üç ay sonra 13-yanvar 2021-ci ildə, doğulub boya-başa çatdığı Xaçmaz rayonunun Çiləgir kəndində

dəfn olunub. Prezident İlham Əliyevin Sərəncamı ilə şəhid əsgər Məmmədov İkram Ehtiram oğlu (ölümündən sonra) “Vətən uğrunda”, "Cəsur döyüşçü", “Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunub. Xatırladım ki, İkram Məmmədov iyulun 13-də hə rbi xidmətə yollanıb. Oktyabrın 13-də Şə hid olub. Yanvarın 13-də dəfn olunub. Xaçmaz şəhərindəki Şəhidlər xiyabanında Şəhid İkram Məmmədovun adına xatirə lövhəsi qoyulub. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

# Şəhid olacağı ürəyinə danmışdı sanki

Keçirdiyimiz hər gün tarixə dönür. Tarixə yazılan günlərin hamısı yaddaqalan olmur. Elə günlər var onlar unudulub gedir, elələri də var ki, onlar heç vaxt unudulmur, yaddan çıxmır. Şəhidlik adi ölüm deyil, Vətən, torpaq, böyük amallar uğrunda candan keçmək, özünü ş üurlu şəkildə qurban vermək deməkdir. Şəhidlik verilmiş ömür payı nı gələcək nəsillərin xoşbəxtliyinə bağışlamaqdır. Düşmən qarşısı nda inamla dayanıb, Vətənimizi, torpaqlarımızı qoruyarkən şəhid olan igid qarda şlarımızdan biri də əsgər Məmmə dov İkram Ehtiram oğludur. Şəhid olmağı özünə ş ərəf bilən İkramın daxilində yüksək vətənpərvərlik, cəsurluq vardır. Elə buna görə də Və tən müharibəsində Şəhid olub. Şəhid olacağı ürəyinə dammışdı sanki... Sən də xoşbəxt ol, üzülmə, arxamca ağlama. Hiss edirə m bir daha görüşməyəcəyik. Mə n şəhid olacam, sənsə şə hid anası. Mən cənnətə gedəcəm. Orada Peyğəmbə rləri, şəhidləri görəc əm. 18 il sənin cənnətində çox xoşbəxt yaşadım. Ana, haqqını mənə, məni də torpağa halal et! Səni şəhid anası edəcəm. Şəhidlər ölməz, unudulmaz! İllər keçsə də, gələcək nəsillə r İkramı hər zaman böyük minnətdarlıq duyğusu ilə yad edəcəklər..

## Şəhidin arzusu polis olmaq idi

Müharibə, döyüş , ölüm, əsirlik həyatı, itkinlər və daha nə qədər faciəli anlar hər biri bir insan ömrünün hekayəsi üzərində qurulur. Əslində insan həyatı uzun olduğu qə dər də qı sadır. Yaşanmışlar ömrü uzatdığı kimi, həyata keçməyən arzular da ömrü qısaldır. Kim deyə bil ər ki, vətən, xalq uğrunda savaşa qalxan o gənc əsgərlərimiz hər biri hansı arzularla döyüş meydanında əzmkarlıq nümayiş etdirib? Haqq yolunda mətinləşən İ kram Məmmədov Vətən, torpaq anlayışına sahib idi. Anlayıb ki, Vətən geniş məfhumdur. Onu sevmək yetməz, həm də qorumaq lazımdır. Hər kəs öz seçdiyi peşəsi ilə Vət ənə xidmət edir. İkramın ən böyük arzusu hərbi xidmətini başa vurduqdan sonra hüquq-mühafizə orqanlarında polis vəzifəsind ə çalışmaq idi. Qismət olmadı, qismə tində ş əhid olmaq vardı. Ürəyi Vətən hərarəti ilə döyünən gənc, arzusu ürəyində gözlərini əbədi yumdu. İkram öz ölümü ilə şəhidlik zirvəsinə ucaldı, ölməzliyə qovuşdu. Belə qəhrəmanlar heç vaxt unundulmur, qədirbilən xalqımızın qəlbinə əbədi yaşayırlar..

## Şəhidlər haqqında

Dünyanı n ən qə dim və mədəni xalqlarından olan Azərbaycan xalqı, özünün tarixi, maddi-mədəni abidələ ri, zəngin ədəbiyyatı, incəsənəti və musiqi mədəniyyəti ilə həmişə fə xr etdiyi kimi, onun tarixini yaradan şəxsiyyətlərə, vətənin azadlığı naminə canını fəda edən oğul və qızlarımızla da haqlı olaraq öyünmüşdür. Xalqımızın Vətəni yadelli düşmənlərdən qoruyan, ağıllı tədbirləri ilə xalqına düzgün yol göstərən Varaz oğlu Cavanşirlə , Uzun Həsənlə, Şah İsmayıl Xətai ilə, doğma Vətəni uğrunda da canından keç ən, ölümün gözünə dik baxan Babəklə, əfsanəyə çevrilən Koroğlu ilə və daha neçə-neçə igid qəhr əmanları ilə həmişə fəxr etmiş, onları əbədi xatirə kimi qəlbində yaşatmışdır. Qəhrəmanlar heç vaxt unudulmur. Xalqımız ana Vətənin azadlığı, doğma diyarın istiqlalı, müqəddə s torpağın şərəfi, qeyrəti, namusu yolunda canını qurban verənləri həmişə qəlbində yaşadır, onları şərəf və qeyrət simvolu kimi xat ırlayır, gənc nəslə nümunə kimi təqdim edir. Olduqca geniş mənaya malik olan vət ənpərvərlik anlayışı özündə vətənə, millətə sevgi hissini, müxtəlif səviyyə və istiqamətlə rdə və tənə, millətə xidmət etməyi birləş dirirsə, bunları zirvə sində Vətən üçün ölümə hazır olmaq dayanır. Bu, vətə npərvərliyin ən uca və ali formasıdır. Bəşər övladı Vətənə xidmə t etməyin bundan uca zirvəsini kəşf etməmişdir. Vətənpərvərlik məsələ si cəmiyyətdə daim actual olmuş, bu gün də aktual olaraq qalır. Millətin vət ənpərvərliyi onun tamlığı nın, bütövlüyünün təməli desək, bə lkə də, səhv etmərik. Bir xalqın, millətin vətənpərvərlik şüuru onun digər xalqlar və millə tlər tərəfində n qəbul edilməsi, tanınması, hörmətl ə qarşılanması, ən əsası isə o xalqın yaratdığı dövlətin bütövlüyü, varlığı, suverenliyi ilə ölçülür. Əgər biz tarixi keçmişimizə nəzər salsaq, görərik ki, doğma yurdumuz Azərbaycanın igid, cəsur oğullar ı, qeyrətli qızları həmişə vətənpərvə r olmuş, yadelli işğalşılara qarşı qəhrəmancasına mübarizə apararaq Vətənimizi düşmən ayağına verməmişl ər. Mərd, mübariz oğul və qızlarımız öz doğma vətənlərini həmişə hərarətlə sevmiş, onun qədrini bilmiş, vət ən naminə canlarını qurban verməkdən çəkinməmişlər. Bu igid Vətən övladları doğma yurd

naminə canlarından keçməklə əsl vətənpə rvərlik nümunəsi göstərmiş, şərəfli bir iz qoyub getmişlər. Bu günümüzün qəhrəmanlıq tarixini bəzə yən oğul və qızlar son dövrlərin Qarabağ savaşının qəhrəmanları, ölümləri ilə ölümsüzlüyə qovuşan şəhidlərdir. Zaman ötür, fəsillər dəyişir, illər ə srlə rə, əsrlər minilliklərə çevrilir, tarixə dönür. Zamanı n gedişində bir çox tarixi hadisələr baş verir. Bə zi tarixi hadisələr müə yyən dövrdən sonra yaddan çıxır, unudulur. Lakin elə zaman, tarixi hadisələr var ki, heç vaxt unudulmur. Nəsillər bir-birini əvəz etdikcə bu tarixi gün daha çox xatırlanır, insanları n yolunu iş ıqlı bir zirvəyə doğru aparır. Bu zirvə ən ali müqəddəs və şərəfli olan şə hidlik zirvəsidir. Çünki şəhidlər uca Yaradanın, Vətənin, millətin yolunda şüurlu surətdə canlarını fəda edən insanlardır. Bu cür insanlar yüksək əxlaqi keyfiyyətə malik olmaqla, qəlblərində Allaha, Vətənə, millətə sevgisi oldugu üçün sonda Allahın rizasını qazanaraq şəhadət mərtəbəsinə ucalırlar. Allahın insanlara göndərdiyi müqəddəs "Qurani-Kərim”də buyurulur: "Şəhidlərə ölü deməyin, onlar diridirlər və Allahın nemətləri ilə faydalanırlar, ancaq siz bunu bilmirsiniz”. Şəhidlik ölümlərin ən şərəflisidir. İkinci Qarabağ müharibəsində qeyrət köynəklərini qana hopduran, canlarını Vətənə fəda edən igid oğul və qızlarımı z doğma Azərbaycanımızın müstəqilliyinə öz qanları ilə imza ataraq, müqəddəs Şəhidlik Zirvəsini fəth etdilər. Şəhidi olmayan xalq torpaq məhəbbətindən, yurd sevgisindən məhrumdur. Şəhidi olmayan xalqın mənliyi, kimliyi bilinməz, azadlığı qanı ilə, canı il ə qazanmayan xalq hər vaxt kölə kimi hə yəcan içində yaşayar. Canlarından keçmə klə xalqın qəhrəmanlıq dastanını, azadlığı nı canı ilə qazanıb qanı ilə yazanlardır şəhidlər. Məhz onların canı və qanı hesabına qazandıqları azadlıq və müstəqillik xalq tərəfindən heç vaxt unudulmur. Ona görə ki, şəhidlər xalqın kimliyini, mənliyini qoruyan insanlardır. Onlar bir xalq qəhrəmanı olaraq zəncirləri qıraraq, zülmətləri yararaq, xalqı işıqlı sabaha aparan, ölüml əri ilə ölməzlik qazanan əbədiyyətə qovuşmuş bəxtiyar insanlardır. Ölüm əslində yoxluq və heçlik deyil. Əbədi diyara səfərdir. Əbədi diyara səfərdən sonra çoxları çox az müddətlik də olsa dünyaya yenidən

qayıtmaq və xeyirxah, saleh əməllər iş ləmə k istəyəcəklər. Ancaq şəhidlər yenidən dünyaya qayı daraq bir daha şəhid olmağı arzulayacaqlar. Şəhidlər haqqında yazılanlar gənc nəsil üçün təkcə qəhrəmanlıq nümunəsi deyil, həm də Vətə nə sədaqə tdi. Şəhidlərimiz tarix yazaraq özləri haqqında dastan yaratdı və bu dastan hər birimizin and yeri oldu. Allah bütün Şəhidlərimizə rəhmət eləsin, amin!

# Müxtəlif şeirlər

## İkram, Çiləgirin şəhid övladı

Çiləgir kəndində çoxdu İgidlər,
Suyundan mərd çıxır, torpağından ər,
Vətən çağıranda hər ə bir əsgər,
Candan üstün tutdu, Vətənə andı,
İkram, Çiləgirin şəhid övladı.

Gah yolçu olurdu, gah da yol idi,
Haqsızın ağası, haqqa qul idi,
O tamam başqa cür bir oğul idi,
Yerli yerindəydi ağlı, savadı,
İkram, Çiləgirin şəhid övladı.

Ömrü qönçə idi, bir növbahardı,
Haqsıza dağ çəkib haqqına vardı,
Əsir torpaqları qanla suvardı,
Zərbindən şər susdu, yer- göy oynadı,
İkram, Çiləgirin şəhid övladı.

Yaşadı dünyada müsafir kimi,
Andı müqəddəsdi, özü pir kimi,
Girdi döyüşlər ə cəsur şir kimi,
Yurdumuzdan kafir iti qovladı.
İkram, Çiləgirin şəhid övladı.

Şəhidlər Allaha ən yaxın sir daş,
Mələkdən, fələkdən ucadı bir baş,
Başını uca tut, Ehtiram qardaş,
Oğlunun tarıxə yazıldı adı,
İkram, Çiləgirin şəhid övladı...

*Məmməd Qədir*

## Şəhidin var, Çiləgir.

Bir şəhid xəbərinə diksindi səhərimiz,
Bir birinə qarışdı, qürurla qəhərimiz,
Hələ də canlar yeyir möhtəşəm zəfərimiz,
Doğma kəndim qaynayır, yenə izdihamdı pir,
Başını uca saxla, şəhidin var, Çiləgir.

Ən ilahi məqama, aç, a kəndim, qolları,
Qəhrəmandı, qazidi bu kəndin oğulları,
İmanın günəşindən işıqlanır yolları,
Şəhidi şəhadətə, ərşə ucalıb gəlir,
Başını uca saxla, şəhidin var, Çiləgir.

Göylər də hönkür çalır, ya ğışlar vermir
aram, Torpağa tapşırılır Ehtiram oğlu İkram,
Uca ruhu göylərdən gülümsəyir, mən varam,
Mələklər də şəninə çiçək səpir, gül əkir,
Başını uca saxla, şəhidin var, Çiləgir.

Kəsib düşmən ayağı n, igidlikdə baş oldun,
Kəndimin ilk şəhidi Əfqana yoldaş oldun,
Şəhidlik məqamında fəxri vətəndaş oldun,
Qismə ti mələk yazır, imzanı Allah çəkir,
Başını uca saxla, şəhidin var, Çiləgir.

Yeni tarix yazanım, Vətən yetişdi kama,
Bu mötəşəm birlikdən şair gəlir ilhama,
Qürur sahibi kimi bu sonsuz izdihama,
Göz yaşları günahdı, Məmmə d, gülə-gülə
gir, Başını uca saxla, şəhidin var, Çiləgir!

*Məmməd Qədir*

# Oğul

Hər zaman uşağsan mənim gözümdə,
Səns ən nur işığım, sə nsə n gözüm
də, Min hikmət taparsan ata sözündə,
Ən kamil öyrətmən atadır, oğul.

Könül çox səhranın qum yeri imiş,
Ürəyim dərdlərin mum yeri imiş,
Bu dünya həyatın ş um yeri imiş ,
Torpağa düşən dən atadır, oğul.

Dünyanın malına salma çox meyil,
Nə dövlət, nə şöhrət əbədi deyil,
Ucalmaq istəsən ataya əyil,
Həm torpaq, həm Vətən atadır, oğul.

## Ölürük

Doğru yaranmışlar yalana uyub,
Haqqı deyənləri dabandan soyub,
Yad dillər dilimi pis günə qoyub,
Dilimizdə danışana gülürük.

Həyat bizə görünsə də çox uzun,
Yazılara, pozulara yox yozun,
Silə- silə ürəklərin hər tozun,
Çox dərdləri indi-indi bilirik.

Həyat pəncərədir, bağlıdır qapım,
Mənki qurd deyiləm di şləyim,
qapım, Nəyi itirdimki, nəyi də tapım,
İlk məkandan son məkana gəlirik.

Kimlərəsə boş görünər bu meydan,
İmans ızla bir dindədir cin-şeytan,
Ömür nədir göz qırpı mı bircə an,
Yaşamqa başlayanda ölürük.

## Qorxma daha

Bizdən bezib, bizdən küsüb,
Sıxılıb dərd, qorxma daha.
Qanayıb dərdimin dizi,
Yıxılıb dərd, qorxma daha.

Bizə heç kim gülən deyil,
Dərddən heç kim ölən deyil,
Dərdsiz insan qalan deyil,
Çoxalıb dərd, qorxma daha.

Qaraldıb hər günümüzü,
Talan edib könlümüzü,
Yeməz qalan ömrümüzü,
Tox olub dərd, qorxma daha.

## Məzara kimi

Çalış düşmə zirvədən,
Nə ruh qalar, nə bədən,
Varmı mənimlə gedən,
Gülsüz məzara kimi.

Sözüm qəlbdən ucalır,
Dilim gözdən bac alır,
Mənə qəm çəkmək qalır,
Dilsiz məzara kimi.

Zülmətdə olan ayam,
Ürəkdi, -ən sərt qayam?
Sanki tənha adayam,
Yolsuz məzara kimi.

Əcələ bürünürük,
Qəlbdə dərd sürünürük,
Nə varlı görünürük,
Pulsuz məzara kimi.

Yada düşsəm gülərsiz,
Mənə rəhmət dilərsiz,
Dostlar bir gün gələrsiz,
Kolsuz məzara kimi...

## Dünyada

Ömür nədir bir əsim,
Nurlu gecə ay bəsim,
Kimsə yar itirməsin,
Bülbül kimi dünyada.

Ömrünüz daralmasın,
Üzümüz qaralmasın,
Gözümüz saralmasın,
Sünbül kimi dünyada.

Xəyallara dalmayaq,
Kaş ümidsiz qalmayaq,
Dolduğca boşalmayaq,
Bir göl kimi dünyada.

Şərəfdir qübarlı əl,
Alın təri, incə ləl,
Qızlarımız çox gözəl,
Tər gül kimi dünyada.

# Qalıb

Eşq atəşi ocağında,
Yandım, indi külüm qalıb.
Məhəbbətin bağçasında,
Solmuş bircə gülüm qalıb.

Mənim ömrüm getdi bada,
Unutma, sən saxla yadda,
Yalan dolu bu həyatda,
Mənə ancaq zülüm qalıb.

Baxma mənim pərt üzümə,
İnan, güvən hər sözümə,
Düşüb əcəlin izinə,
Getmədiyim ölüm qalıb.

Haqqın yoluna meyiləm,
Hər gün beş kərə əyilləm,
Özgəsi kimi deyiləm,
Öz ağzımda dilim qalıb.

## Sevgi

Bu bahalı ömrümüzdə,
Ucuz olub, indi sevgi.
Sevən üçün yaradandır,
İlk imandır, dindi sevgi.

Könlümdə gül olub bitdi,
Sehrə saldı heyran etdi,
Dilimi lal edib getdi,
Ürəyimdə dindi sevgi.

Həyat eşqin şöləsidir,
Könlümün ilk meyvəsidir,
Ürəyimdə ney səsidir,
Sazda sarı simdi sevgi.

Odur Kəbə, odur namaz,
Hər ömürdə çiçəkli yaz,
Aşiq olmayan anlamaz,
Bilən bilir, nədi sevgi.

## Ay qoca

Saç ağarıb, ömür qışdı,
Qüssə kədər qəlbə xışdı,
Sən qəmginsən, dünya xoşdu,
Qəmə batırsan ay qoca.

Mələklər qonub çiyninə,
Salıb ölümü beyninə,
Ruhun da gəlmir əyninə,
Bezə satırsan ay qoca?

Qaldın oğul minnətinə,
Düşdün dərdin töhmətinə,
Göz yaşınla şərbətinə,
Zəhər qatırsan ay qoca.

Bel bükülür, diz bükülür,
Gözündən həsrət tökülür,
Gecələr yuxun çəkilir,
Gündüz yatırsan ay qoca.

Baxıb oğluna, qızına,
Sonra sönmüş ulduzuna,
Ölüm adlı son arzuna,
Nə tez çatırsan ay qoca.

# Ölmədin

Eşq odunu qəlbimə,
Sala bilərdin bəlkə,
Salmadın!
Ürəyimdə əbədi,
Qala bilərdin bəlkə,
Qalmadın!

Mənsiz gedirsən hara?
Mənəm dərdinə çara,
Sakitcə xəyallara,
Dala bilərdin bəlkə,
Dalmadın.!

Kirpiyini sıxaraq,
Dərd çəpərin yıxaraq,
Gözlərimə baxaraq,
Gülə bilərdin bəlkə,
Gülmədin.!

Girmə hicran dəryama,
Lənət sənsiz dünyama,
Bircə dəfə röyama,
Gələ, bilərdin bəlkə,
Gəlmədin.!

Qadanı almasaydım,
Yanında qalmasaydım,
Dərmanın olmasaydım,
Ölə, bilərdin bəlkə,
Ölmədin!

# Qapı

Tanhalıqdan mən ölmürəm,
Heç kimllə dərdi bölmürəm,
Nə səbəbdəndi, bilmirəm,
Açan yox yazar qapısın.

Dərdimi kimsə bilməsin,
Bilib toz kimi silməsin,
Dərd-bəla bizə gəlməsin,
Bağlayın azar qapısın.

Vicdanın satan çoxalıb,
Qeyrətin atan çoxalıb,
Az insanda həya qalıb,
Tanımır bazar qapısın.

Dərd köhnədir, sevinc təzə,
Əyriləri çıxar düzə,
Özünü soxaraq gözə,
Döymə bəd-nəzər qapısın.

Kişiyik birdir sözümüz,
Başımız dik, ağ üzümüz,
Bağlı bəsirət gözümüz,
Görmürük məzar qapısın...

# Bir gün belə...

Qayadan qopmuş daşam,
Daşlar içində başam,
Gah gündüzəm, gah axşam,
Bir gün belə, bir gün elə.

Dərdlərimiz nəhəng, böyük,
Cılız dünya, biz sənə yük,
Gah ağacam, gah də kötük,
Bir gün belə, bir gün elə.

Hərdən sevilən oluram,
Hərdən boşalıb, doluram,
Tər çiçək kimi soluram,
Bir gün belə, bir gün elə.

Varlığın mənə təsəlli,
Bu sevgi aləmə bəli,
Gözəlimsən, şirin dilli,
Bir gün belə, bir gün elə...

## Biri

Həzin külək kimi əsir,
Qəlbimdə yaşayan biri.
Yar dediyim vəfasızsa,
Qəlbim deyil onun yeri.

Çırpınır dalğa tək ruhum,
Cismim nakam sahil kimi.
Ürəyim neyə bənzəyir,
Amma yoxdur, sarı simi.

Könül versəm vəfasıza,
Bir gün qəlbimi sıxacaq.
Ömür boyu gözlərimdən,
Qüssə-kədər, qəm axacaq...

## Vətən doğacaq məni

Qəlbimdə püskürdü vulkan,
Günəşim, itirdim səni.
İşığına çökdü duman,
Nə hala gətirdim səni.

Cücərib qəmin toxumu,
Sevgi dolu həyatımda.
Necə gedim, bu düz yolu,
Bəxtimin əyri atında.

Günahlarım qatil olub,
Bilirəm boğacaq məni.
Nə anam, nə də Allahım,
Bu Vətən doğacaq məni!

## Zəhmətkeş şair

Mən zəhmətkeş bir şairəm,
Alnım tərli, əlim qabar.
Könlümün ilk meyvəsini,
Dərə bilməz vəfasızlar.

Məhəbbətim çinar kimi,
Zirvələrə ucalacaq.
Vəfalı olan sevgilim,
Mənimlə bir qocalacaq.

Eşq-məhəbbət dağlarında,
Dumanı, çəni neynirəm.
Sevgi dolu ürəyimdə,
Vəfasız, səni neynirəm!

## Xocalı

Dəli kimi qışqırıb,
Dünyaya haray salım.
Yağıların əlində,
Yetim qalan Xocalım.

Günahsız insanları,
Öldürdülər o gecə.
Süd əmən körpələrə,
Zülüm etdilər necə.

Xocalı sağalmayan,
Ürəyimdə yaramdır.
Etnik xalqıma qarşı,
Baş vermiş soyqırımdır.

# Yox

Mən bir başqa dünyayam,
Günəşim yox, Ayım yox.
Gözlərimdə yaş donub,
Əriyəsi yayım yox.

Zəmanədən danışma,
Özündən danış insan.
Zəmanə dəyişməyib, -
Dəyişib təmiz ad, san.

Yad olan birisinə,
Salam verəndə gülür.
Yadları yad edəndə,
Qəlbində şeytan ölür.

Məni bağışla, Allah,
Yanlış yolla gedəndə.
Ruhumu azad elə,
Ölməsin ruh bədəndə.

## Olmaz

Qapqaranlıq gecənin,
Olar nurlu səhəri.
Sənsiz necə tərk edim,-
Sən olan bu şəhəri?

Yarın gözündə eşq var,
Heyran edəcək məni.
Gülə aşiq olmuşam,
Gülsün ömür çəməni.

Eşq elə bir bəla ki,
Öldürsə də qan olmaz.
Can deyən çox olsa da,
Heç biri canan olmaz.!

# Mündəricat

Ön söz əvəzi
Elegiya 4
Qardaş 5
Ucaldın əl çatmaz zirvəyə, İkram
6 Savaşın 7
Çiləgir kəndinin mərd oğlu, İkram 8
Füzuli torpağın azad edərkən 9
Xaçmazın qüruru, hörmətli oğlu 10
Qurban olum ay İkram 11 İgidsən
12
Adını yazmısan qəhraman kimi 13
Şəhidim 14
Peyğəmbərlər məqamındadır, İkram 15
On səkkiz yaşında Məmmədov İkram
16 Axı 17
Şəhadət mərtəbən mübarək olsun
18 Bayramın mübarək 19 Ağrı 20

Əsgərim 21
Bəlkə 22
Sən zəif deyilsən, ey Azərbaycan 23
Çətindir dərdinə dözmək, can bala 24
Şəhid anası 25
Şəhid olub balam mənim 26
Düşmənin qarşısında 30

Qoparmayın köz yaramı 28
Bir qəhraman tanıyıram 29
Düşmənin qarşısında 30
Var 31
Sənə şeir yazanda mən 32
Döyünürəm Vətənimlə 33
Ruhun şad olsun qardaşım 34
Şəhidin var Azərbaycan 35
Şükürlər olsun ya, Rəbbim 36
Biz Oğuz türkləriyik 37
Ehtiram oğlu İkram 38
Gedəndə özü dedi 39
Füzuli 40
Gəl danışaq 41-42
Şəhid anasının fəryadı 43
Şəhidlər ölmür 44
Fotolar
Zəfər yolu 3
On səkkiz yaşlı İkram 5
Döyüş yolu 2
Xaçmaz Şəhidləri
Dəfn günü 2
Gənc qəhrəman - Esse 3
Şəhid olacağı ürəyinə danmışdı sanki
1 Şəhidin arzusu polis olmaq idi
Şəhidlər haqqında 4

İkram, Çiləgirin şəhid övladı
Şəhidin var, Çiləgir.
Oğul
Ölürük
Qorxma daha
Məzara kimi
Dünyada
Qalıb
Sevgi
Ay qoca
Ölmədin
Qapı
Bir gün belə...
Biri
Vətən doğacaq məni
Zəhmətkeş şair
Xocalı
Yox
Olmaz